**UOT 338**

# AZƏRBAYCANIN TİKİNTİ KOMPLEKSİ VƏ ONUN İNKİŞAFININ İNVESTİSİYA TƏMİNATI

**Rüfət MƏMMƏDLİ***

Məqalə redaksiyaya daxil olmuşdur: 12 may 2023; çapa qəbul edilmişdir: 15 iyun 2023; online-da çap edilmişdir: 30 iyun 2023.
Received: 12th of May, 2023; accepted: 15th of June, 2023; published online: 30th of June, 2023.

**Açar sözlər:** *milli iqtisadiyyat, tikinti kompleksi, investisiyalar, əsas kapitala vəsaitlər, dövlətin investisiya siyasəti, proqramlar, dövlət tənzimlənməsi, iqtisadi inkişaf*

## Giriş

Müasir şəraitdə Azərbaycanın tikinti kompleksinin səmərəli və dinamik inkişafının təmin edilməsi dövlətin iqtisadi tənzimləmə fəaliyyətinin prioritet istiqamətinə çevrilmişdir. Bu problemin milli maraqlara uyğun həlli dövlətin başlıca məqsədi sayılır.

Səmərəli investisiya siyasətinin reallaşdırılması əsasında milli tikinti kompleksinin iqtisadiyyatın aparıcı sahəsinə çevrilməsi mükəmməl hüquqi-iqtisadi tənzimləmə mexanizminin tətbiqini vacib amilə çevirir.

Bu baxımdan, Azərbaycanda tikinti bölməsinin səmərəli inkişafı köklü institutsional, hüquqi-iqtisadi islahatların aparılması əsasında mükəmməl iqtisadi-hüquqi tənzimləmə mexanizmi formalaşdırmaq və iqtisadi inkişaf prosesində bu mexanizmi bacarıqla tətbiq etməklə başlıca məqsədə nail olmaq dövlətin başlıca tənzimləyici fəaliyyətinin prioritet istiqaməti sayılmalıdır.

Beləliklə, ölkədə investisiya resurslarını tam səfərbər etmək və bu resurslardan maksimum dərəcədə rasional və səmərəli istifadə etməklə milli tikinti bazarının formalaşması Azərbaycan iqtisadiyyatının səmərəli inkişafına etibarlı zəmin yaratmış olur.

## 1. Tikinti istehsalatının inkişafında dövlətin tənzimləyici rolu

İstənilən milli iqtisadiyyatın dinamik və səmərəli inkişafı əsaslı şəkildə ölkənin investisiya resurslarından rasional istifadədən asılıdır. Bu məqsədlə dövlətin tənzimləyici fəaliyyətində prioritet istiqamət əsaslandırılmış investisiya siyasətinin işlənib hazırlanması və onun uğurlu şəkildə bacarıqla reallaşdırılması sayılır.

Bir qayda olaraq, dövlətin investisiya siyasəti milli iqtisadiyyatın əsas sahələrindən sayılan tikinti kompleksinin milli maraqlara uyğun inkişafının təmin edilməsinə yönəldilir. Bu baxımdan: «Ümumən, dövlətin investisiya siyasəti iqtisadiyyatda ki, rolunu tam açıqlamaq üçün onun digər sahələrə, proseslərə təsirini izah etmək lazım gəlir. Bu gün modernləşən və rəqabətqabiliyyətli iqtisadi sistemin davamlı inkişaf etməsi baxımından dövlətin investisiya-innovasiya siyasətini reallaşdırmaq üçün öz qarşısında bir sıra həlli vacib sayılan vəzifələr qoyulur ki, onlar da bu siyasətin rolunu açıqlayır». (5, s. 7)

* *magistrant, BAAU*
*e-mail:* rufet.memmedli13@mail.ru

Ümumiyyətlə, tikinti bölməsində investisiya siyasəti dedikdə, ilk növbədə, bu sahəyə kifayət həcmdə maddi və maliyyə ehtiyatlarının istiqamətləndirilməsi və başlıca olaraq, bu ehtiyatlardam maksimum səmərəli istifadəni təmin edəcək tədbirlər sistemi başa düşülməlidir.

Müvafiq tədbirlər kompleksinin işlənib hazırlanması və onların dövlətin əsas məqsədi sayılan tikinti sferasının dinamik inkişafının tənzimlənməsində səmərəli reallaşdırılması milli iqtisadiyyatın inkişafının sistemli şəkildə həyata keçirilməsi başa düşülməlidir. Tikinti bölməsinin inkişafının investisiya proseslərində mühüm bir problem kimi diqqətdə saxlanması onunla əlaqədardır ki, məhz bu kompleks milli iqtisadiyyatın bütün sahə və sferalarının formalaşması və tərəqqisində maddi-texniki bazanın yaradıcısı hesab olunur. Beləliklə də, tikinti sahəsi ümumilikdə milli iqtisadiyyatın inkişafının maddi təminatçısı rolunu oynadığına görə də Azərbaycanda onun səmərəli inkişafının təmin edilməsi dövlətin iqtisadi siyasətinin prioritet istiqaməti kimi qiymətləndirilir.

Deyilənlərə əsaslanmaqla belə söyləmək olar ki, müasir iqtisadi inkişaf proseslərində oynadığı rolu nəzərə almaqla investisiya resurslarının tənzimlənməsi kontekstində tikinti kompleksinin inkişaf amillərinin ətraflı tədqiq edilməsi milli maraqlar baxımından olduqca vacib bir prosesdir.

Belə bir fikri söyləmək olar ki, dövlətin investisiya siyasətinin tikinti sferasının inkişafına düzgün istiqamətləndirilməsi nəticə etibarı ilə dövlətə bilavasitə milli istehsalın sürətli artımına, ölkədə elmi-texniki inkişafın templərinin yüksəlməsinə, iqtisadi strukturun daha da təkmilləşdirilməsinə və bu əsasda da mühüm əhəmiyyətli iqtisadi problemlərin səmərəli həllinə əlverişli şərait yaratmış olur.

Artıq bütün dünyada birmənalı şəkildə qəbul edilmiş bir haldır ki, ölkə iqtisadiyyatında uğurlu investisiya siyasətinin həyata keçirilməsi mükəmməl hüquqi baza yaradılmasını qətiyyətli şəkildə tələb edir. Daha dəqiq ifadə edilsə, investisiya proseslərinin reallaşması gedişində investisiya resurslarının iqtisadi dövriyyəyə tam cəlb edilməsi və onlardan maksimum dərəcədə səmərəli istifadənin təmin edilməsi üçün dövlət tərəfindən ilk növbədə çox sayda qanunlar və digər normativ-hüquqi aktların qəbul edilməsi fəaliyyəti hüquqi təminatı yaratmış olur. İnvestisiya fəaliyyətinin hüquqi təminatı mahiyyət etibarı ilə milli iqtisadiyyata maddi və maliyyə formasında daxili və xarici investisiya resurslarının əsaslandırılmış şəkildə cəlb edilməsinə, onların dövlət tərəfindən qorunmasına təminatların zəmanət verilməsi, həmçinin milli və xarici investorların qanuni hüquqlarının qorunması üzrə əlverişli şəraitin yaradılması anlamına gəlir.

Tikinti sferasında investisiya layihələrinin qəbul edilməsində və onun tətbiqində investisiya mühitinə böyük əhəmiyyət verilir. İnvestisiya mühiti dedikdə, investorların fəaliyyətinə əlverişli siyasi, iqtisadi-hüquqi və təşkilati şəraitin yaradılması başa düşülür.

Aparılan təhlilə əsasən qeyd etmək lazımdır ki, Azərbaycanın tikinti sektorunda son 25 ildə çox sayda investisiya layihələri reallaşdırılmışdır. Belə ki, hazırda tikinti sahəsində konkret fəaliyyətlər üzrə 100-dən artıq investisiya layihələri reallaşdırılmaqdadır. Burada xüsusi hal kimi qeyd edilməlidir ki, bu layihələrin bir çoxu artıq düşməndən azad edilmiş Qarabağ ərazisində həyata keçirilməkdədir.

İnvestisiya proseslərinin real istehsal elementinə çevrilməsi durumu ilk növbədə əsas kapitala yönəldilən vəsaitlərin həcmi ilə xarakterizə olunur. Mahiyyət etibarı ilə bu tikinti sektorunun texniki-iqtisadi durumunun yüksəldilməsini əks etdirir. Beləliklə, tikinti sektoruna maliyyə investisiya resurslarının istiqamətlənməsinə 2010-2021-ci illər ərzindəki prosesləri araşdırmaqla düzgün nəticə əldə etmək olar. Belə ki, təkcə 2010-2021-ci illər ərzində əsas fondların təkrar istehsalına yönəldilən investisiyaların həcmi orta illik 20% templə artarmış, demək olar ki, 1,8 dəfə artaraq 17,3 mlrd. manat təşkil etmişdir. (bax: cədvəl 1)

*Cədvəl 1.*

**2010-2021-ci illər ərzində əsas kapitala yönəldilmiş investisiyalar**
**mln. manat**

| İllər | Cəmi | O cümlədən | | | |
|---|---|---|---|---|---|
| | | Daxili | | Xarici | |
| | | mln.manat | faizlə | mln.manat | faizlə |
| 2010 | 9905,7 | 6291,7 | 63,5 | 3614,0 | 36,5 |
| 2015 | 15 957,0 | 9 058,5 | 56,8 | 6 898,5 | 43,2 |
| 2017 | 17 430,3 | 8 765,2 | 50,3 | 8665,1 | 49,7 |
| 2018 | 17 238,2 | 12 016,7 | 69,7 | 5 221,5 | 30,3 |
| 2019 | 18539,5 | 12867,1 | 69,4 | 5672,4 | 30,6 |
| 2020 | 17226,1 | 12070,8 | 70,1 | 5155,3 | 29,9 |
| 2021 | 16815,5 | 12561,9 | 74,7 | 4253,6 | 25,3 |

**Mənbə:** *AR-nın statistik göstəriciləri, 2022. DSK. s. 380*

Cədvəl rəqəmləri göstərir ki, 2021-ci ildə əsas kapitala yönəldilən maliyyə vəsaitlərinin həcmi 2010-cu illə müqayisədə 69% artaraq, 16,8 mlrd. manat təşkil etmişdir ki, bunun da 12 mlrd. manatı və ya 75%-i daxili investisiyalar hesabına olmuşdur.

Ümumiyyətlə, milli iqtisadiyyata istiqamətlənən investisiyalar 2021-ci ildə bütün mənbələr üzrə 25,4 mlrd.manat olmuşdur ki, bu da 2010-cü il ilə müqayisədə 80% artım olduğunu əks etdirir (7, s. 380).

Hesablamalara əsasən göstərmək olar ki, bu vəsaitlərin təqribən 49%-i ölkədaxili resursların payına düşür.

Aparılan məqsədyönlü investisiya siyasəti son 10 ildə Azərbaycan iqtisadiyyatında investisiya şəraitini əlverişli etmişdir ki, bu da bir sıra amillərin təsiri altında mümkün olmuşdur. Bura hüquqi, siyasi, iqtisadi-maliyyə və s. mühitləri misal göstərmək olar. Nəticə etibarı ilə Azərbaycan iqtisadiyyatında investisiya prosesləri kəmiyyət və keyfiyyət meyarları üzrə müsbət nəticə ilə xarakterizə olunmuşdur.

## 2. Tikinti sektoruna yönəldilən investisiyaların mövcud vəziyyəti

Müasir şəraitdə əsas kapitala investisiyaların yönəldilməsi milli iqtisadiyyatın inkişafında müstəsna rol oynayır. Bu dövlətin bütün rəsmi sənədlərində xüsusi diqqət yetirilən məsələ sayılır. «Dövlət investisiyalarının və dövlət şirkətlərinin fəaliyyətinin iqtisadi səmərəsi yüksəldilməli, bu sahədə şəffaflıq səviyyəsi artırılmalıdır. Dövlət şirkətlərinin kommersiya prinsipləri əsasında fəaliyyət göstərmələri üçün zəmin yaradılmalı, qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla korporativ idarəetmə standartları tətbiq edilməli və gəlirlilik səviyyələrinin artırılması təmin olunmalıdır». (4, bölmə: 1.1)

Qeyd edilmiş sahədə dövlətin fəaliyyətinin koordinasiya edilməsi və investisiya siyasətinin səmərəli reallaşdırılmasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 30 mart tarixli 1395 nömrəli «İnvestisiya Fəaliyyətinin Təşviqi üzrə Əlavə Tədbirlər haqqında» Sərəncamı ilə «Azərbaycan İnvestisiya Şirkəti» (AİŞ) Açıq Səhmdar Cəmiyyəti yaradılmışdır. İnstitutsional islahatların sonrakı gedişində AİŞ-in bazasında «Azərbaycan İnvestisiya Holdinqi»nin (AİH) yaradılmış və bunda başlıca məqsəd milli iqtisadiyyata daha böyük həcmdə investisiyalar cəlb etmək və bu vəsaitlərdən maksimum dərəcədə səmərəli istifadəni təmin etməkdir. Azərbaycan iqtisadiyyatında qeyri-neft sektorunun və təbii ki, ilk növbədə tikinti kompleksinin sürətli və dinamik inkişafının təmin edilməsidir.

«Azərbaycan İnvestisiya Holdinqi» milli iqtisadiyyatın bütün struktur elementlərində müasir standartlara cavab verən obyektlərin inşa edilməsini yüksək səviyyədə həyata keçirir.

Hesablamalar göstərir ki, Azərbaycanda hazırda AİH-in iştirakı ilə Qarabağın işğaldan azad olunmuş ərazilərində onlarla irimiqyaslı investisiya layihələri reallaşdırılmaqdadır. Bir halı da xüsusi qeyd etmək lazımdır ki, məhz AİH-in səmərəli fəaliyyəti nəticəsində milli tikinti bazarının daha da zənginləşməsinə və inkişafına geniş imkanlar yaradılmış olur.

Ümumiyyətlə, hər bir dövlətdə milli iqtisadiyyatın dinamik inkişafı güclü investisiya potensialının olmasını tələb edir. Bu baxımdan: «İnvestisiya ümumi daxili məhsulun tərkibində bir komponent kimi çıxış edir və hər bir cəmiyyətdə iqtisadi inkişafa nail olmaq və milli sərvətin artırılmasını təmin etmək üçün zəruridir. Belə ki, makroiqtisadi tarazlıq və məşğulluğun səviyyəsi iqtisadiyyata qoyulan investisiyanın həcmi ilə əlaqədardır. Hər bir dövlət investisiya qoyuluşunu artırmağa və bunun da nəticəsində ÜDM və milli gəliri artırmağa çalışır». (6, s. 15)

Aparılan araşdırmaların göstərdiyi kimi, dövlətin investisiya siyasətinin uğurla reallaşdırılması nəticəsində milli iqtisadiyyatın struktur unda nəzərəçarpan təkmilləşmə baş vermişdir. Belə ki, hazırda tikinti sektoru tikinti məhsulların həcminə görə iqtisadi strukturda öz mövqeyini daha da möhkəmlətmişdir. Başqa sözlə, 2021-ci ildə ÜDM-də tikinti məhsullarının payı 10,7% təşkil etmişdir ki, bu da ona maddi istehsal sahələri tərkibində 2-ci mövqeyə çıxmaq imkanı vermişdir.

Bütün qeyd edilən amillərin təsiri altında hazırda tikinti sektoru dinamik inkişaf imkanları əldə etmişdir və maddi istehsal sferalarında əlverişli mövqeyə nail olmuşdur. (Cədvəl 2).

Cədvəlin rəqəmlərinə istinad etməklə göstərmək olar ki, son illərdə tikinti sferasında dinamik inkişaf prosesi reallaşmışdır. Belə ki, 2021-ci ildə 2010-cu illə müqayisədə əsas kapitala yönəldilən vəsaitlərin həcmi 1.7 dəfə artaraq, 17,2 mlrd. manat təşkil etmişdir. Bunun müqabilində, göstərilən dövr ərzində tikinti işlərinin həcmi 2,2 dəfə artaraq demək olar ki, 10 mlrd. manat təşkil etmişdir. Hazırda tikinti bölməsində əsas fondların istifadəyə verilməsinə 13 mlrd. manat yönəldilmişdir ki, bu da 2010-cu il göstəricisi ilə müqayisədə 2,2 dəfə çoxdur.

*Cədvəl 2.*

**Tikinti sektorunun əsas göstəriciləri, 2010-2021-ci illər**

| | **2010** | **2015** | **2016** | **2018** | **2021** |
|---|---|---|---|---|---|
| Əsas kapitala yönəldilmiş vəsaitlər, milyon manat | 9 905,7 | 15 957,0 | 15 772,8 | 17 238,29 | 17 238,29 |
| o cümlədən:<br>- məhsul istehsalı sahələrinə | 4 821,0 | 9948,2 | 1 247,3 | 1 156,4 | 1 156,4 |
| - xidmət sahələrinə | 4 273,3 | 4978,2 | 2 666,1 | 4 268,0 | 4 268,0 |
| - yaşayış evlərinin inşasına | 811,4 | 1 030,6 | 759,4 | 1 313,8 | 1 313,8 |
| Tikinti işlərinin dəyəri, milyon manat | 531,4 | 7 319,6 | 7 660,4 | 8 329,9 | 9 974,8 |
| Əsas fondların istifadəyə verilməsi, milyon manat | 5 961,3 | 9 933,3 | 10 157,4 | 12 357,8 | 12 978,8 |

**AR DSK-nin materialları. 2022*

Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 02 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər» ölkədə tikinti sektorunun perspektiv inkişafına investisiya resurslarının istiqamətləndirilməsi yollarını müəyyənləşdirmişdir.

Milli iqtisadiyyatın inkişafının tənzimlənməsi üzrə bu mühüm sənədin ardıcıl reallaşdırılması qarşıdakı illərdə tikinti sektorunun səmərəli inkişafı üçün samballı hüquqi əsas yaratmış olur.

**Nəticə**

İnvestisiya proseslərinin tənzimlənməsi üzrə aparılan tədqiqatın yekunu üzrə söyləmək olar ki, son 10 il ərzində Azərbaycanda dövlətin apardığı əsaslandırılmış investisiya siyasəti ölkədə tikinti sektorunun dinamik inkişafına əlverişli şərait yaratmışdır.

Tikinti sferasının inkişafında investisiya imkanlarından maksimum səviyyədə səmərəli istifadə dövlət tərəfindən son illərdə formalaşdırılan mükəmməl iqtisadi-hüquqi mexanizmin böyük rolu vardır. Bu mexanizmin formalaşdırılması üçün samballı hüquqi bazanın yaradılması istiqamətində dövlətin fəal hüquqyaratma fəaliyyəti həyata keçirilmişdir.

Son illərdə tikinti sektorunun inkişafında dövlətin investisiya fəaliyyətinin aparılmasına tərəfindən tikinti sektorunun investisiya təməlində inkişafının reallaşdırılmasının samballı hüquqi tənzimləmə mexanizminin yaradılmasında AR Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 №li Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi» və 2021-ci il 02 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər»in olduqca böyük rolu olmuşdur.

Beləliklə, qeyd edilməlidir ki, adı çəkilən rəsmi dövlət sənədləri nəticə etibarı ilə qarşıdakı 10 illik müddətə Azərbaycanda milli tikinti sektorunun dinamik və səmərəli inkişaf strategiyasına uyğun olaraq, tikinti sektoruna daha çox həcmdə investisiyaların cəlb olunması 2025-ci il və daha sonrakı illərdə ölkə iqtisadiyyatının mühüm təkanverici qüvvəsinə çevriləcəkdir.

Müasir şəraitdə Azərbaycanın tikinti sektorunun dinamik inkişafının təmin edilməsi iqtisadi dövriyyəyə həm daxili mənbələrdən, həm də xarici mənbələrdən investisiya resurslarının cəlb edilməsi və bu resursların tikinti məhsullarının istehsalının yüksəlməsinə istiqamətləndirilməsi əsasında mümkün sayıla bilər.

Deyilənləri ümumiləşdirməklə belə nəticəyə gəlmək olar ki, Azərbaycanda tikinti münasibətlərinin inkişaf etdirilməsində düzgün işlənmiş və səmərəli reallaşdırılan investisiya siyasəti müstəsna rol oynayır.

**ƏDƏBİYYAT**

1. Azərbaycanın statistik göstəriciləri, 2022. AR DSK. Rəsmi nəşr "Narıncı Nəşriyyat Evi" MMC, 2022. 747 s
2. Əzizova G.A. Dövlətin investisiya-innovasiya siyasəti. Bakı: İqtisad Universiteti, 2012, 212 s
3. Əliyev T.N. Regional innovasiya sisteminin təşkili və idarə edilməsi. Bakı: Elm və təhsil, 2013. 272 s.
4. Musayev A.F. İnnovasiya iqtisadiyyatı və vergi stimullaşdırılması. Bakı, 2014. 183 s.
5. «İnvestisiya fəaliyyəti haqqında» AR Qanunu. Bakı, 1995
6. «İnvestisiya fondu haqqında» AR Qanunu. Bakı, 2000.

7. AR Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 №li Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi- https://e-qanun.az/framework/39721
8. AR Prezidentinin 2021-ci il 02 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər» https://president.az/az/articles/view/50474
9. http://www.elibrary.az - AR Prezident kitabxanası
10. http://www.mincom.gov.az AR İqtisadiyyat Nazirliyinin rəsmi saytı

***Резюме***

***Руфат Мамедли***

***Строительный комплекс Азербайджана и инвестиционная гарантия его развития***

Инвестиционная политика государства направлена на обеспечение развития строительного комплекса, являющегося одним из основных направлений национальной экономики, в соответствии с национальными интересами.

Под планомерной реализацией развития народного хозяйства следует понимать разработку комплекса соответствующих мер и их эффективную реализацию в регулировании динамичного развития строительной сферы, что является основной целью государства. строительная отрасль играет роль материального обеспечения развития национальной экономики в целом, обеспечение ее эффективного развития в Азербайджане является частью экономической политики государства и считается приоритетным направлением.

В результате правильная направленность инвестиционной политики государства на развитие строительной сферы создает благоприятные условия для быстрого роста национального производства, повышения темпов научно-технического развития в стране, дальнейшего совершенствования экономическое устройство и на этой основе эффективное решение важных экономических задач. При этом государственная политика включает в себя комплекс мер, таких как ускорение строительного производства, обеспечение оздоровления общественной жизни, доведение социально-экономических показателей государства до мирового уровня, предотвращение ухудшения состояния окружающей среды.

Инвестиционная среда имеет большое значение при принятии и реализации инвестиционных проектов в сфере строительства. Под инвестиционной средой понимается создание политических, экономических, правовых и организационных условий, благоприятных для деятельности инвесторов. Кроме того, производство строительных инструментов и технологий для реализации строительных проектов и в то же время дальнейшее облегчение условий импорта является одним из других вопросов.

Это, в свою очередь, создает условия для развития строительного производства с более высоким качеством и скоростью.

Управление инвестиционно-строительными проектами требует комплексного подхода в привлечении необходимых инвестиций, участников и ресурсов, а также технико-экономических схем в процессе реализации проекта.

За последние 25 лет в строительном секторе Азербайджана реализовано большое количество инвестиционных проектов. Здесь следует отметить как частный случай, что многие из этих проектов реализуются на уже освобожденной от врага территории Карабаха.

***Ключевые слова:*** *национальная экономика, строительный комплекс, инвестиции, основные фонды, государственная инвестиционная политика, программы, государственное регулирование, экономическое развитие*

***Summary***

***Rufat Mammadli***

***Construction Complex of Azerbaijan and Investment Guarantee of its Development***

The investment policy of the state is aimed at ensuring the development of the construction complex, which is one of the main areas of the national economy, in line with national interests.